# Kafkanın həyatı haqqında



***Dünya ədəbiyyatının korifeylərindən sayılan Avstriya yazıçısı FransKafkanın insanın ruhuna qədər işləyən vahiməli və absurd üslubu olub. Bu mənada, onun həyat və yaradıcılığı haqqında bəzi faktlar böyük maraq doğurur.***

FransKafka Praqada doğulmuş, əsasən, alman dilində yazıb-yaratmış yəhudi mənşəli Avstriya yazıçısıdır.

Qəssab nəvəsi olan Kafka ömrü boyu ət yeməyib.

Özünü aciz və qapalı apardığına görə uşaqlıqda onu qeyri-adi uşaq və dəli kimi qəbul ediblər. Yazıçı deyirdi: "Ədəbiyyatdan başqa hər şeyə nifrət edirəm. Qonaq getmək mənim üçün darıxdırıcıdır. Doğmalarımın kədərini, sevincini paylaşmaq mənə dəhşətli dərəcədə cansıxıcı gəlir. Kiminləsə söhbət məni vacib, ciddi və orijinal şeylər düşünməkdən məhrum edir".

***Frans Kafka adı indi Praqanın ən önəmli simvollarından biri sayılır.***

***Kafka gəncliyində təsəvvür edilməyəcək dərəcədə tənha olub. O, valideynləri, xüsusən də qəddar atası ilə heç cür dil tapa bilmirdi. Atasına yazdığı məktubda belə bir cümlə var: 'Sənin ucbatından özümə olan inamımı da itirib günah qazandım".***

Yazıçı bir müddət bədbəxt hadisələrlə bağlı sığorta bölməsində adi, darıxdırıcı ofis işçisi olub ki, bu da onu daha böyük ümidsizliyə və bədbinliyə yuvarladıb.

Kafka hissləri ilə borcları arasında qalan insan olub. Bir yandan özünü onu hüquqşünaslığa bağlamış valideynlərinə borclu bilir, digər tərəfdən də yazıçılığa can atırdı. O, gündəliklərində belə yazırdı: "Əzab dolu ikili həyat yaşayıram. Məni bundan ancaq dəlilik xilas edə bilər".

Kafka həyatı boyu müxtəlif xroniki xəstəliklərə – vərəm, başağrısı, yuxusuzluq, qəbizlik və başqa xəstəliklərə mübtəla olub.

Yazıçının yaradıcılığında əsas bədii çalar metametafora, yəni ikiqat bənzətmədir. Məhz metametafora onun əsərlərinə böyüklük, absurdluq, dərinlik və faciəlilik gətirir.

Ağır xəstəlik keçirdiyi zaman Frans Kafka dostu MaksBroddan heç kəsin xəbəri olmayan romanları da daxil olmaqla onun bütün əlyazmalarını yandırmağı xahiş edir. Lakin dostu nəinki əlyazmaları məhv etmir, hətta onları nəşr etdirir. Beləliklə, məhz dostu Brodun sayəsində Kafkanı bütün dünya tanıdı.

Ölümündən sonra şöhrət tapmış romanları ilə yanaşı, Kafkanın sağlığında qiymətini almayan hekayələri də az deyil.

Səhhətindəki problemlərlə bağlı Kafka 40 yaşına qədər yaşayacağına inanmırdı.

Şəxsi sarsıntı və yaşantılarının əks olunduğu hekayələri ona qorxularına qalib gəlməkdə kömək edib.

Ölümündən sonra çap edilmiş üç romanı – "Amerika", "Məhkəmə" və "Qəsr" əsərləri yarımçıqdır.

İyul ayının 3-də doğulan yazıçı iyunun 3-də vəfat edib.

***Xaraktercə melanxolik olmasına baxmayaraq, dostları Kafkanın qeyri-adi yumor hissini xüsusi qeyd ediblər. Hətta onlar Kafkanı 'məclisin gözü" adlandırırdılar. Alman nəşrlərindən biri KafkanınÇarliÇaplinə oxşarlığını qeyd edib. Yazıçı, dostlarından birinə belə yazmışdı: 'Mən şənlənməyi də bacarıram, buna şübhəniz olmasın".***

***Mürəkkəb ailə münasibətləri səbəbindən Kafkaevlənməyib. Düzdür, o, bir neçə dəfə nişanlansa da, hər dəfə bir bəhanəylə qarşı tərəflə münasibətə son qoyub.***

**Tərcümə edən: Nəriman Əbdülrəhmanlı**

**Səhifəni hazırladı: Emil Rasimoğlu**

Türküstan.- 2020.- 29 avqust-7 sentyabr.- S.22.